İftixar

# Dan yeri söküləndə

## İki hissəli qəmli komediya

**HAMI** - Can-can, qəmər can, Beldə kəmər, can, Dərdin mən alaram...

**AŞIQ ƏHSƏN** - Işarət eylədim, dərdimi bildi, ooy... Gördüm həm gözəldi, həm əhli dildi. ooy... Başını buladı, gözünnən güldü, ooy... Güləndə qadası canıma düşdü,

**HAMI** - Can-can, Qəmər can, Beldə kəmər can, Dərdin mən alaram...

**AŞIQ ƏHSƏN** - Ələsgərəm, hər elmdən halıyam, ooy... Dedim: Sən dərdlisən, mən yaralıyam. ooy... Dedi: Nişanlıyam, özgə malıyam, ooy... Sındı qol-qanadım, yanıma düşdü.

**HAMI** - Can-can Qəmər can, Beldə kəmər can, Dərdin mən alaram (*Yetim Bayram tələşla, əlində yaylıq, cırıqcındır görkəmlə, ağlaya-ağlaya səhnəyə daxil olur.*)

**YETİM BAYRAM** - Belə görüm öyü yıxılsın inək aparanın, heç belə, salamat ağıznan yeməsin... Ehsanına qismət olsun... Öyüm yıxıldı a Barbaryan, bir çətən külfət o inəyin südüynəncə dolanırdı, indi bə həncəri olacaq, niyə tutmursunuz bu oğruları? Havaxta kimi belə olacaq? Bə buna bir əncam çəkilməyəcəkmi? Indi mənim balalarım nə yeyəcəkdi? Qurban olum sizə a Baduladze, a Barbaryan, üzüm ayağınızın altına, mənim inəyimi tapın, qaytarın. Balalarımın alxışı sizə bəsdi...

**BARBARYAN** - A kişi, sanin inak kim apardı?..

**YETİM BAYRAM** - Bilsəydim buraya gələrdimmi? Oğruları siz məndən yaxşı tanıyırsınız. Yeri-göyü gəzmişəm, dan üzünnən gumanım gələn hər yeri ələk-vələk eləmişəm, gördüm deyən olmadı... Bir də ki, kim görəsidi? Gecə kəndirini kəsib aparıblar... Yanı, hər gecə zincirə salırdım, elə bil xata olan kimi bu gecə kəndirnən bağlamışdım...

**BARBARYAN** - Vsyo, znaçit inayi san ozin apardi...

**YETİM BAYRAM** - Sən nə danışırsan, mən özüm öz malımımı aparıram?..

**BADULADZE** - Iyaxşi, kimdan şubhalanirsan?..

**YETİM BAYRAM** - Kimdən şübhələnəsiyəm, oğruları siz məndən yaxşı tanıyırsınız, hər gün gözünüzün qabağında muroy-muroy gəzirlər, əlli kərə yanınıza gəlirlər-gedirlər... Mənim dilimdənmi eşitmək istəyirsiniz?..

**BADULADZE** - Tı çto, znaçit man oğurlamişam?.. Qaspadin naçalnik, zanimaydes...

**BARBARYAN** - (*Yetim Bayramın qolunu qandallayır.*) Davay-davay, qir içari...

**YETİM BAYRAM** - Ay sizə qurban olum, məni niyə tutursunuz, mənim malım oğurlanıb, mən ha mal oğurlamamışam?..

**BADULADZE** - Sanin dilin çox uzanib...

**YETİM BAYRAM** - Ay qurban olum, bə şikayət eləməyimmi?.. Dərdimi deməyimmi?..

**BARBARYAN** - Zatknis, sənin inak zincirda bağlanirdi, a poçemu bu qecə kəndir bağladi, atsyuda tak vıxodit çto, znaçit inak san ozin oğurladi... Voopşe mojet har şeyi san oğurladi bu kandda, ha?.. Za vsyo eto tıy doljen otviçat... Davay, qir içari... (*Itələyə-itələyə polis şöbəsinə aparır.*)

**YETİM BAYRAM** - Ayə, a cahamat, görürsünüzmü ayə, belə də haqsızdıqmı olar, bə Allah bunu görmürmü?.. Niyə götürür Allah bunu?.. Biz başımıza haranın daşını salaq?..

**BARBARYAN** - Mala qavari, keç içari, orda hamisini priznayoş...

**YETİM BAYRAM** - (*Diz üstə yerə çökür.*) Qadan alım a nəçənnik, məni içəri salma, cəhənnəm olsun inək, itib, belə cəhənnəmə itsin, qara göra itsin, indi harda olsa tapılar. Düz deyirsən, günah mənim özümdədi, mən gərək onu zincirə salaydım... Sənə qurban olum, balalarıma yazığın gəlsin, burax çıxım gedim...

**BADULADZE** - Ahaa, uje priznayot, boynuna aldi. Znaçit, kandin oğrusi tapıldi... (*Barbaryan Yetim Bayramın yaxasından yapışıb sürütləyə-sürütləyə aparıb içəri salır və dərhal geri qayıdır.*)

**BARBARYAN** - Tak, qde miy astonavilis? Da, oxu Aşuq Ax... Axsan.

BADULADZE- Aşuq, davay, odin Yetim Qurci imğere ra... (*Yetim Gürcü oxu da...*)

**AŞIQ ƏHSƏN** - Baş üstə badono hökumət, oxuyacam, əmbə o yazıx Yetimi burax getsin, öz dərdi özünə bəsdi...

**BARBARYAN** - Niçeqo, onin yerina sani salaram içari, onda ağli qalar başina...

**MOLLA QASIM** - Necə paza keçmişik aə... ( *Aşıq Əhsən yanıqlı-yanıqlı Yetim Gürcü havasını çalıb-oxuyur. Cəlil Əfəndi pərişan halda gəlir. Kef çəkənlərə tamaşa edir.*)

**CƏLİL ƏFƏNDİ** - Bunlar əməlli-başdı kef eləyirlər ki...

**MOLLA QASIM** - Bu arsız Aşığa baxsana, öydə arvad-uşaq acından bir-birinin qulağını yeyir, bu burda Barbaryana surfa açıb, kef verir...

**CƏLİL ƏFƏNDİ** - Aşıq da içir deyəsən...

**MOLLA QASIM** - Içir nədi?.. Belə lap küpünə girir... Onlar bir-bir içəndə o iki-iki içir...

**AŞIQ ƏHSƏN** - Bir ver baxım ayə... (*Aşıq Əhsən teleqramı Molla Qasımın əlindən almaq istəyərkən, Muncuqlu Mahmud onu sinəsindən geri itələyir.*)

**MUNCUQLU MAHMUD** - Çəkil aə!.. Sən get çömçəni dıngıldat. Dilmi bilirsən kağıza əl uzadırsan?.. (*Bir qədər oxuyur və birdən gözlənilməz bir qəhqəhə ilə şaqqanaq qoparır.*) Tı smotri a, kakoy on falşivıy neqodyay. Rovna iki ildi Rasiyaya gedib, poka heç nə öyrənə bilməyib. Nu, kakoy on neqramotnıy! Neqodyay, razve belə teleqrammu sostavlyayut?!.

**AŞIQ ƏHSƏN** - Ay ürəyin çəkilsin, a dilinə düyün düşsün, ürəyimiz çəkildi, di başa sal görək nə yazılıb dana...

**HAMI** - Nə yazılıb axı?.. Nə yazılıb a Mahmud, başa sal dana...

**MUNCUQLU MAHMUD** - Znaçit tak, on edet. Xıdır gəlir. Prosto on neqramotnıy, poetomu ağzına gələni pişet. Qulaq asın, çto on pişet? Kak pişet, tak je oxuyuram, nemnoqo posmeyomsya. "Bereqite sebya, mene ne volnavatsya, tvoy muj qalava ne mojetsya derjatsya v Rasiya taqda Xıdır umryotsya. - Bezqramotnıy kazyol. - Vstreçatsya trinadtsato. Privetstvovate Jemçujinnıy Maxmud." Soplyak, teleqrammasını sastavit eliyə bilmir, hələm bir mənim adımı da tərcümə edib. "Jemçujnıy Maxmud." Sən gəl çıx, mən sənə pokaju Jemçujinu... Bezqramotnıy neqodyay... (*Üzünü camaata tutur.*) Seqodnya kakoe çislo?..

**CƏLİL ƏFƏNDİ** - Bu gün on üçüdü, Xıdır bu gün gəlir... Ay qızım, ağlama, gözün aydın olsun, ərin bu gün gəlir. Rusca yaxşı bilmədiyinə görə yazdığı bildiyi kimidi... Dur, dur ayağa, get Qızlarbəyi qarıdan muştuluq al, Xıdır bu gün kəndə gəlir. Özün də süfrə aç, hazırlıq gör, ərin Rusiyadan evinə qayıdır. Yəqin innən sonra günün ağarar... (*Günəşin kədərdən axıtdığı göz yaşları bir anın içindəcə sevincə çevrilir.*)

**GÜNƏŞ** - Bıy, Allah sizi söyündürsün. Allah hamınıza dadını çatsın. Allah üzünüzü güldürsün, az qalmışdı kin ürəyim partdasın... Sana qurban olum, Allah. Səni tanımıyana nəhlət. Səni tanımıyan küllü-kafirdi... Allah səni bu eldən-obadan əskik eləməsin ay Cəlil Əfəndi. Allah həməşə səni söyündürsün, necə ki, sən məni söyündürdün... Allah sizi söyündürsün ay cahamat!.. Gedim, gedim Qızdarbəyi nənəmi söyündürüm... (*Tez teleqrammanı Muncuqlu Mahmudun əlindən alıb, öpüb gözünün üstünə qoya-qoya, qaçaraq səhnədən çıxır.*)

**MUNCUQLU MAHMUD** - Sluşayte, teleqrammanı mən oxudum, no Cəlil Əfəndiyə alxış eliyir bu...

**AŞIQ ƏHSƏN** - Sana alxış polojunnu döylü. Ömründə bir kərə sən də bu kənddə bir işə yaramalı döylüdünmü?..

**MOLLA QASIM** - Allaha şükür, yazıq qızın canı dincəldi...

**CƏLİL ƏFƏNDİ** - Hələ bilmək olmaz. Sevinməyə tələsməyin. Qoyun görək nə təhər gəlir? Əli ətəyinin harasında gəlir Xıdır?

**MUNCUQLU MAHMUD** - Sluşayte, sağ-salamat gəlib çıxmağın özü də bolşoe delo...

**BADULADZE** - Dumayu çto, iyaxşi puli qatirar. Potamu, çto v Rassiya denqi qaq qurumuş iyarpaq yerda lejandi...

**BARBARYAN** - Day Boq, çto yaxçi pul qatirsin. Potamu, çto on mne doljen.

**MOLLA QASIM** - Aha, hələm gəlib çıxmıyıb, uje nəçənnik belinə borc qoydu.

**BADULADZE** - Badono Aşuq, davay nalevay, za vozvraşeniya Xıdır, davlyot... (*Içək...*) (*Yavaş-yavaş yeyib-içənlər yerlərini tutur, Cəlil Əfəndi ilə Molla Qasım bir kənarda fikirləşirlər. Aşıq Əhsən stəkanları şərabla doldurur. Bu vaxt Sülə Sülöymən özünəməxsus haray-həşirlə səhnəyə daxil olur.*)

**SÜLƏ SÜLÖYMƏN** - Salamməlöyküm a millət!.. Gün aydın, a Cəlil Əfəndi... (*Üzünü yeyib-içənlərə tutur.*) Ay belə sizin günortanıza gün çıxsın. Yediyiniz-içdiyiniz nuşi-can olsun. Halal-halal xoşduxnan yeyin-için... Nə qulluq eliyim sizə?..

**AŞIQ ƏHSƏN** - Ayə, a Sülə, sən əyninə şalvar geyinib, özün-özünə kişi deyənnən havaxt, harda, kimə, həncəri, nə qulluq eliyibsən?..

**SÜLƏ SÜLÖYMƏN** - Kim aəə? Ayə, sən ömrün boyu mənim artıq-urtuğumu gəmirdəməyibsənmi?.. Stəkanımın dibində qalanı hortullatmıyıbsanmı?..

**MOLLA QASIM** - Vallah, kişi düz deyir dana. Ömrü boyu onun-bunun surfasında sülənən o ha döylü, bizik...

**SÜLƏ SÜLÖYMƏN** - Buna-buna-buna... Buna bir baxın ey, heç olmuya sən danışma a geydirmə. Onun-bunun cümə axşamlarında sülənən sənsənmi, yoxsa mənəmmi?..

**MOLLA QASIM** - Mən sülənsəydim, xalq, el mana sülə kliçqası qoyardı, sana yox...

**SÜLƏ SÜLÖYMƏN** - Elin ağlı olsaydı sana molla deməzdi...

**MOLLA QASIM** - Xalx-millət səhərdan səni gəzir, hayanda sülənirdin bax?.. Əmbə düzünü de...

**SÜLƏ SÜLÖYMƏN** - Aə, mən el adamıyam, surfalar yaraşığıyam, məclisdər şahıyam, ziyafətdər kralıyam, nə bilim mən, hərə bir tərəfə dartır, özün dilinnən demirsənmi ki, xalx məni gəzir? Xalxın işi mənsiz keçmir dana. Sən ha döyləm uzaqdan xalx görəndə yolunun səmtini dəyişə... Neynirdi aə xalx məni?.

**MOLLA QASIM** - Ayə, qudurma ayə, qudurma ayə... Xalxın nəyinə lazımsan sən. Hansı zibilə dərmansan ki, bir xalx da səni gəzə?.. Şəhər avtobusu gəlib çıxmadı, çarəsiz qalıb, dedik, bəlkəm sən dranquletinən Cəlil Əfəndini şəhərə aparasan. Kəndin qəbiristanlığı dolub, qəbiristanlıq üçün torpaq almağa gedir qubernatordan Cəlil Əfəndi...

*(Davamı növbəti sayımızda)*

*P.S. Əvvəli jurnalımızın ötən saylarında*